**P.F.ALIYEVA**
*e-mail: perialiyeva8517@gmail.com*
**:https://orcid.org/0009-0005-8391-3351**

**Gəncə Dövlət Universiteti**
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

**10.62021/0026-0028.2025.2.221**

## TƏLİM PROSESİNDƏ SOSİAL-PEDAQOJİ İŞİN HƏYATA KEÇİRİLMƏSİ YOLLARI

***Xülasə.*** *Tədqiqat göstərdi ki, əqli inkişafdan geri qalan, psixoloji çatışmazlıqlara malik şagirdləri xüsusi tərbiyə müəssisələrində onlar üçün əlavə şərait yaratmaqla tərbiyə etmək məqsədəuyğundur. Lakin dayaq-hərəkət aparatında, aşağı, yuxarı ətraflarda, görmə, eşitmə funksiyalarında qüsurlar olan şagirdlərin xüsusi şəraitdə, öz həmyaşıdlarından təcrid olunmuş qaydada tərbiyə olunmasına ehtiyac yoxdur. Əksinə, ümumi təlim-tərbiyə müəssisələrində əlavə şərait yaratmaqla onları tərbiyələndirmək, təhsil vermək daha əhəmiyyətlidir. Çünki onlar məktəb yaşı dövründən sonra bütün həyatlarını azad, cəmiyyətlə qaynaşıb qarışmış şəraitdə keçirəcəkdir.*

***Açar sözlər:*** *sosial-pedaqoji iş, kiçikyaşlı məktəbli, təlim prosesi, praktiki iş, dinamik meyil*

Cəmiyyətimizə maraqlıdır ki, böyüyən nəslin sosiallaşması uğurla həyata keçirilsin. Hər bir kəs vətəndaş biliklərə yiyələnməklə yanaşı, kişi və qadın funksiyasını ləyaqətlə yerinə yetirməyə, möhkəm və namuslu ailənin qanunlarına yiyələnməyə, cəmiyyətin sosial, iqtisadi həyatında səriştəli formada iştirak etməyə, vətəndaş hüquq və vəzifələrini dərindən bilməyə, qanunlarımıza hörmət bəsləməyə can atmalıdır. Bu məqsədlə, böyüyən nəslin sosiallaşması müsbət yönümdə istiqamətlənməli və ictimai vəzifələrin uğurla yerinə yetirilməsi üçün əldə etdiyimiz bütün imkanlardan səmərəli istifadə olunmalıdır. Məhz bu imkanlar sırasında məktəb təlim-tərbiyə müəssisəsi olmaqla geniş qüdrətə malik sosial institutlardan biri hesab olunur. Məktəb kiçik yaşlı məktəblilərin sosiallaşmasını pedaqoji prosesin, şagirdlərin məktəbdə fəaliyyətinin, onların idman, əyləncə, əşyəvi-praktik, mənəvi-praktik, idraki sahələrdə fəallığı vasitəsilə həyata keçirir. Deməli, məktəbdə şagirdlərlə aparılan işlər ümumilikdə sosial məzmundan kənarda durmur. Professor Ə.Ə.Ağayevin ifadəsi ilə desək, “Təhsil işi, təlim-tərbiyə prosesi təkcə pedaqoji məzmun daşımır, ciddi sosial və ictimai, əxlaqi-mənəvi mahiyyəti ilə səciyyələnir” [2, s.15].

Ümumi şəkildə yanaşsaq, təhsil bütün dövrlərdə cəmiyyətin kompleks inkişafına təsir göstərə bilən qüvvə olmuşdur. Bəşəriyyət elmi-texniki tərəqqinin, texnoloji sıçrayışların çağdaş səviyyəsinə, ictimai şüurun inkişaf dinamikasına görə təhsilə borcludur. Bəşəriyyət, həmçinin sosial ziddiyyət və konfliktlərin bir çoxunun yüz illər boyu aradan qaldırılmasına görə məhz təhsilə borclu olduğunu təsdiqləyir. Təhsil zəncirinin mühüm həlqəsi olan məktəb bu gün də çox məsuliyyətli vəzifələrin həllində aparıcı müəssisələrdən sayılır [1, s.58].

Məktəbdə uşaq kollektivinin əsas tipi şagird kollektivi hesab olunur. Sosialogiyada və so-sial psixologiyada bərqərar olmuş təsnifatlara görə, sinif-şagird kollektivi kiçik qrupdur. Kiçik qruplar üçün səciyyəvi olan invariant xüsusiyyətlər ona da xasdır. Lakin sinif şagird kollektivi özünəməxsus xüsusiyyətlərlə kiçik qrupun başqa növlərindən seçilir.

Məktəbdə insan münasibətlərinin sosial-psixoloji imkanı var. Pedaqogika uzun müddət bu məkanın emosional-psixoloji xüsusiyyətlərini sistemli nəzərə almayıb, ən yeni tədqiqatlar göstərir ki, sosial pedaqogikanın bir çox aktual problemlərinin kökünü elə həmin məkanda axtarmaq lazımdır. Bu sosial psixoloji məkanın ana xətti müəllim-şagird və şagird-şagird münasibətləri ilə bağlıdır. Bir şəxsiyyət kimi müəllim də, şagird də bu münasibətlərdə mövcuddur. Onların mürəkkəbliyi, eyni zamanda ziddiyyətli olması müəllim və şagirdin psixoloji siması ilə şərtlənir. Müəllim həmin münasibətlərdə təkcə peşəkar mütəxəssis kimi deyil, həm də müəyyən həyat təcrübəsi olan insan kimi iştirak edir. Sosial-pedaqoji işin uğurlu aparılması üçün sinif kollektivində mövcud münasibətlər sisteminə bələd olmaq çox vacib şərtdir.

Sinif kollektivində qarşılıqlı münasibətlərin iki qatı formalaşır. Birinci qat formal(və ya rəsmi) münasibətləri əhatə edir. Müəllim də, şagird də konvensial roldur. Müəllim-şagird münasibətlərindən tutmuş şagird-şagird, sinif nümayəndəsi-şagird və s. münasibətlərinə qədər onların hamısı formal münasibətlərdir.

Formal münasibətlərlə yanaşı şagird kollektivində sosial-psixoloji qanunlarla qeyri-formal (və ya qeyri-rəsmi) münasibətlər əmələ gəlir. İki qızın və iki oğlanın bir-birilə dostluğu qeyri-formal münasibətlərə misal ola bilər. Bu qeyri-formal əlamətlər əsasında sinif kollektivi daxilində 2-3, 3-4, bəzən 4-5 nəfərlik mikroqruplar əmələ gəlir və sinif kollektivinin həyatında mühüm rol oynamağa başlayır.

Çox vaxt eyni bir şagirdin formal və qeyri-formal münasibətlərdə mövqeyi eyni olmur. Məsələn, A. formal münasibətlərdə geridə qalan şagird sayılır, halbuki qeyri-formal münasibətlərdə özünün nüfuzu ilə seçilir və yaxud B. formal münasibətlərdə əlaçı kimi xüsusi yer tutur. Halbuki qeyri-formal münasibətlərdə sinfin adi şagirdlərindən biridir. Müəllim sinif kollektivində şəxsiyyətlərarası münasibətləri tənzim edərkən kiçikyaşlı məktəblilərin məhz formal və qeyri-formal münasibətlərdə mövqeyini zəruri sürətdə nəzərə alınmalıdır. Kiçik yaşlı məktəblilərdə həyat yollarında qarşılaşdığı bir çox çətinlikləri dəf etməyə imkan verən daxili qüvvələrin, qabiliyyət və bacarıqların inkişaf etdirilməsində, sosial mühitdə müəyyən situasiyalarda adaptasiya olunmağa kömək edən mənəvi məsuliyyət və xarakterin formalaşdırılmasında, özünüreallaşdırmanın həyata keçirilməsi üçün şəxsiyyət və peşə səviyyəsinin təmin olunmasında, özünüinkişaf və mənəvi potensialın açılmasında lazımi şəraitin yaradılması üçün təlimin imkanları əhatəli səciyyə daşıyır.

Tədqiqat zamanı biz təlim prosesində kiçikyaşlı məktəblilərin sosiallaşmasına təsir göstərən amilləri aşağıdakı şəkildə müəyyənləşdirmişik:

– Təhsilin məzmunu. Bu məzmun müasir, aktual olmaqla biliklərin fasiləsiz artmasına uyğun olaraq daim yeniləşməlidir;

– Təlimin metodları. Bu metodlar çevik və dinamik olmalı, şagirdə yönəlməli, hafizədən daha çox yaradıcı təfəkkürə istiqamətlənməli, interaktiv olmalıdır;

– Təlimin istifadə olunan təşkili formaları. Bu formalar tədrisin qarşısına qoyulmuş məqsədlərə uyğun olaraq düzgün seçilməlidir;

–Təlim prosesi iştirakçıları arasında qarşılıqlı münasibətlər. Bu münasibətlər elə qurulmalıdır ki, kiçikyaşlı məktəblilərin yaradıcı qüvvələrinin reallaşmasına təkan versin, onun şəxsiyyət keyfiyyətlərinin sosial məzmunda inkişafın stimul yaratsın.

Bu amillərin daha geniş formada izahını verməyi vacib sayırıq.

Bizə məlumdur ki, təhsilin məzmunu tədris planı, tədris proqramı və dərsliklərdə öz əksini tapmaqla şagirdlərə bilik, bacarıq və vərdişlərin aşılanmasını reallaşdırır. Təhsilin məzmunundan söhbət gedərkən qeyd etməliyik ki, ibtidai siniflərdə şagirdlərlə sosial pedaqoji işin aparılması üçün geniş imkanlar mövcudur. Təhsilə yiyələnməyin ilkin mərhələsində hər bir

şagird üçün bərabər şəraiti reallaşdıran mövzular onların sosiallaşmasında müxtəlif təsirlər kompleksini özündə ehtiva edir. Həmin imkanlar 1 sinfin tədris proqramında "Yaxşı dostun təsiri", "İki yoldaş", "Kəbirənin ad günü", "Bülbül və qızılquş", "Cırcırama və qarışqa", "Tıq-tıq xanım", "Məhəmməd peyğəmbərin kəlamlarından", "Ramazan bayramı", "Qurban bayramı", "Kirpi və tülkü"; II sinfin tədris proqramında "Balıq, qu və xərçəng", "Yaxşı yoldaşın təsiri", "Bizim köməkçilərimiz", "İki kotan". "Hörümçək və ipəkqurdu", "Ayı və şir", "Aslan və iki öküz", "İnsana məhəbbət", "Bizim ana vətənimiz", "Ətraf aləmi qoruyaq", "Ən yaxın yoldaşın", "Əsl dost", "Bahar bayramı", "Üç rəfiqə", "Gəl Novruzum"; III sinfin tədris proqramında "Qoca bağbanın vəsiyyəti", "Cırcırama və qarışqa", "Yeddi nar çubuğu", "Dost dosta tən gərək", "Sapı özümüzdəndir", "Məhəmməd Peygəmbərin insaf və ədalət haqqında kəlamları", "Vətənin torpağı təmizdir", "Müqəddəs adətlər", "Novruz bayramı", "Ramazan ayı", "Qurban bayramı", "Vətən onu qoruyanındır", "Təbiət dostlarıyıq", "Ən çox sevdiyim oyun və əyləncə", "Qarışqa və göyərçin", "Dostluq", "Vətənin keşiyində", "Balaca neftçi"; IV sinifin tədris proqramında "Dostluq", "Qoca çinar", "Dostluğun gücü", "Zəhmət, ağıl, bəxt", "Qurd və quzu", "Qarğa və tülkü", "Sinifimizin kollektivi", "Sadiq köməkçilərimiz", "Mənim anam", "Düzlük və doğruçuluğu necə başa düşürəm", "Azərbaycanın milli geyimləri", "Anama kömək edirəm", "Vətən oğlu", "Ana yurdum" və s. mövzularda nəzərdə tutulub ki, bu mövzuların tədrisi zamanı həm şagirdlərdə, həm də ibtidai sinif şagirdlərində qarşılıqlı münasibətlərlə yanaşı, yüksək mənəvi keyfiyyətlər formalaşır. Bu tendensiyanı şərtləndirən əsas cəhət kiçikyaşlı məktəblilərin fərdi-psixoloji xüsusiyyətlərinin müxtəlifliyidir. Məhz bunun nəticəsi olaraq kiçikyaşlı məktəblilərin sosiallaşması ayrı-ayrı istiqamətlər üzrə reallaşır. Məsələn, birinci sinifin "Əlifba" dərsliyində şagirdlərə ilkin sosial vərdişlərin yeni məzmunda (orta məktəb səviyyəsində) aşılanması üçün tərtib olunan mövzular hər bir şagirdin real idraki imkanlarının üzə çıxarılması və onların qabiliyyətlərinin, digər fərdi-psixoloji xarakteristikalarının müəyyənləşdirilməsi dərəcəsində əlverişlidir. Bu prosesdə qeyd etmək lazımdır ki, həm də şagirdin sosiallaşmasının real istiqamətləri aydınlaşır. Tədris proqramında əksini tapan mövzularda həm kiçikyaşlı məktəblilərin idraki, əşyəvi-praktik fəaliyyətinə, kollektiv kimi birliyinə perspektiv imkanlar müəyyənləşir, həm də onların sosiallaşmasının prioritet istiqamətləri aydınlaşır.

İbtidai sinif dərsliklərinə daxil edilən mövzular elə bir məzmunda seçilmişdir ki, bu mövzuların tədrisi zamanı mahiyyətindən asılı olaraq kiçikyaşlı məktəblilərin dərsdə passiv müşahidəsi kimi iştirakı mümkün olmur. Bu prosesdə ibtidai sinif şagirdi həm də öz həyatının fəal qurucusu kimi sosial təcrübəsini zənginləşdirir və ikinci tərəf kimi çıxış edir.

Kiçikyaşlı məktəblilərdə sosial pedaqoji işin aparılmasında istifadə olunan təlimin metodları müəllimlə şagirdin birgə fəaliyyətində səmərəli nəticələrin əldə edilməsi üçün, qarşıya qoyulan məqsədə çatmağa imkan verən üsullar və vasitələr kompleksidir. Təlimin metodları həm də müəllimin pedaqoji fəaliyyətində gündəlik istifadə olunan və şagird şəxsiyyətinin təkmilləşməsinə istiqamətlənən sosial təsirlər kompleksi hesab olunur. Məhz bu kontekstdən yanaşmaqla sosial pedaqoji işin aparılması üçün təlimin metodlarının real imkanlarını müəyyənləşdirmişik.

Hələ 1960-cı illərin əvvəllərində tədqiqatçı pedaqoq D.B.Elkonun ibtidai sinif şadirdlərinin təlim-tədris fəaliyyətinin formalaşmasının psixoloji məsələlərini araşdıraraq yazmışdır ki, "tədris fəaliyyəti mürəkkəb quruluşlu prosesdir; bu mürəkkəb quruluşda mərkəzi komponent təlim vəzifəsidir. Təlim vəzifəsi praktik vəzifədən fərqlidir, baxmayaraq ki, onlar eyni vəzifəyə xidmət edir. Təlim vəzifəsi elə bir vəzifədir ki, burada anlayışlar, qanunauyğunluqlar, nəzəri mahiyyət öyrədilir, praktik vəzifə isə şagirdin gücünü məsələnin həllinə yönəldir, biliklərini tətbiq edir. Hər iki vəzifənin vəhdəti nəticəsində şagirdin nəzəri biliklərlə yanaşı və nəzəri bilikləri əsasında bacarıq və vərdişləri formalaşır. Məhz bu prosesdə şagirdin müstəqil fəaliyyəti mühüm rol oynayır" [4, s.40-41].

Kiçikyaşlı məktəblilərin müstəqil fəaliyyətinin təmin olunması üçün təlimin metodları geniş pedaqoji imkanları özündə birləşdirir. Hazırda interaktiv metodlar, fəal təlim medodları,

təlim texnologiyaları anlayışlarına tez-tez rast gəlirik. Xarici beynəlxalq təşkilatlar və milli qurumlar tərəfindən təlimin metod və texnologiyalarının təbliği, müəllimlər arasında yayılması ilə əlaqədar on ildən artıqdır ki, seminarlar, müzakirələr, layihələr (treninqlər, monitorinqlər) keçirilir. Bu yığıncaqlarda həm təhsilin məzmunun yerləşdirilməsi, həm də təlimin metod və texnologiyalarının modernləşdirilməsi istiqamətində geniş müzakirələr həyata keçirilir. Müzakirələrin nəticəsi olaraq tədrisin aparılmasında interaktiv təlim metodlarından istifadəyə daha çox üstünlük verilir [3, s.19].

Metod olaraq interaktivlik təlim prosesində müəllim və şagird arasında işin gedişindən – mövzudan, şərhdən, dialoqdan, rollu oyundan həmin anda meydana çıxan yanaşma, izah, dialoq və sairdən ibarətdir. Yəni bu tərz irəlicədən planlaşdırılmır, işin-təlim prosesinin gedişi bu məqamı ortaya çıxarır və daha çox şagirdin müstəqilliyi, müdaxiləsi ilə baş verir. Digər tərəfdən, interaktivlik şagirdlərin özləri arasında da da ola bilir. Əsas cəhət odur ki, bu prosesdə əməkdaşlıq edən öyrənənlər və öyrədən eynihüquqlu mövqedə dayanırlar. Təbii ki, müəllim öyrədən olaraq təşkilatçılıq, koordinator, məsləhətçi, fasilifator funksiyasını yerinə yetirir; şagirdlərin işlərinə müdaxilə etmədən problemləri qoyur, istiqamət verir, nəzarət edir, axtarış strategiyasını hazırlamağa kömək edir, amma təlim tapşırıqları üzərində uşaqlar özləri birlikdə, öz aralarında mübahisə edərək, diskussiya apararaq işləyirlər [2, s.78-79].

İnteraktiv metodlara daxildir: rollu oyun; debatlar, söz assosiasiyaları, əqli hücum, kiçik qruplarla iş, ideyalar xalisi, qərarlar ağası, tərdimat (prezentasiya), sənədlərlə iş, vəziyyət üzrə praktikum, sosioloji tədqiqat, diskussiya, biri digərini öyrədir, fikrən gəzinti, mozaika, mediasiya, danışıqlar, problemin həlli, mövqe tutun, cütlərlə iş və s.

***İşin elmi nəticəsi.*** Cəmiyyətdə sosiallaşmanın xoşagəlməz şəraitinin qurbanları – görmə, eşitmə, nitq qüsurları, fiziki inkişaf çatışmazlıqları olan, həmçinin ağıldankəm, psixi inkişaf ləngimələri olan şagirdlərə tez-tez rast gəlmək olur. Məhz bu kateqoriyadan olan kiçikyaşlı məktəblilərlə sosial pedaqoji işin aparılması, nəticədə onların inkişafındakı anomaliyanın ağırlıq dərəcəsini azaldır.

***İşin elmi yeniliyi*** ondan ibarətdir ki, ilk dəfə olaraq kiçikyaşlı məktəblilərlə aparılan sosial pedaqoji işin mahiyyəti, məzmunu və təşkili yolları işlənilmişdir. Bu yaş qrupuna daxil olan şagirdlərlə sosial pedaqoji işin aparılmasının ümumi prinsipləri açıqlanmışdır.

***İşin tətbiqi əhəmiyyəti.*** Aparılan tədqiqatın nəticələri kiçikyaşlı məktəblilərlə aparılan sosial pedaqoji işin sisteminin qurulmasına, şagirdlərə yönələn neqativ təsirlərin neytrallaşdırıb aradan qaldırılması üçün konkret yollar müəyyənləşdirilməsinə, tədbirlər zamanı şagirdlərin asudə vaxtının təşkili məsələlərini sosial pedaqoji ölçülərlə sistemləşdirilməsinə böyük fayda verə bilər.

## Ədəbiyyat


1. Abdulov, R.Ş. Məktəbdə sosial-pedaqoji işin əsasları / R.Ş.Abdulov, – Bakı: Adiloğlu, – 2015, – 210 s.
2. Ağayev, Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik / Ə.Ə.Ağayev, – Bakı: Adiloğlu, –2006, –138 s.
3. Əlizadə, H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Nəzəriyyə, Metodika, Axtarışlar / H.Ə.Əlizadə, – Bakı: Səda. – 2018, – 344 s.
4. Элконин, Д.Б. Психология игры / Д.Б.Элконин. – Москва: Педагогика, –1998. – 241 с.


**P.F.Alieva**

**Ways to Implement Social and Pedagogical Work in the Educational Process**

***Summary***

The study showed that it is advisable to educate students with mental retardation and psychological disabilities in special educational institutions by creating additional conditions for them. However, there is no need for students with musculoskeletal disorders, lower and upper limbs, and

vision or hearing impairments to be taught in special conditions, isolated from their peers. On the contrary, it is important to educate and educate them in general education institutions, creating additional conditions for them. Because after school age, they will spend their entire lives freely, in conditions of close interaction with society.

***Key words:*** *social and pedagogical work, primary school student, learning process, practical work, dynamic focus*

**П.Ф.Алыева**

**Пути реализации социально-педагогической работы в учебном процессе**

***Резюме***

Исследование показало, что обучение учащихся с задержкой психического развития, с психологическими недостатками целесообразно воспитать в специальных воспитательных учреждениях, путем создания для них дополнительных условий. Однако нет необходимости в том, чтобы учащиеся с нарушениями функций опорно-двигательного аппарата, нижних и верхних конечностей, зрения или слуха обучались в специальных условиях, изолированно от своих сверстников. Напротив, важно воспитывать и давать образование в общеобразовательных учреждениях, создавая для них дополнительные условия, потому что после школьного возраста они проведут всю свою жизнь свободно в условиях тесного взаимодействия с обществом.

***Ключевые слова:*** *социально-педагогическая работа, школьник младшего возраста, процесс обучения, практическая работа, динамическая направленность*

*Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev*

*Redaksiyaya daxil olub: 02.05.2025*